**Hacılar Aytən**
*İ.Cavaxişvili adına Tiflis Dövlət Universitetinin Avropa Araşdırmaları İnstitutunun doktorantı, Valeh Hacılar Beynəlxalq Elmi-Mədəni Araşdırmalar Vəqfinin əməkdaşı*

# 1918-1919-cu İLLƏRDƏ TİFLİS VƏ BORÇALI QƏZALARINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARINA SEÇKİLƏRDƏ AZƏRBAYCANLILARIN İŞTİRAKI: DÜNYADA DEMOKRATİK YOLLA SEÇİLMİŞ İLK MÜSƏLMAN QADIN DEPUTAT -PƏRİXANIM SOFİYEVA

**Açar sözlər:** Gürcüstan Demokratik Respublikası yerli özünüidarəetmə orqanları – "eroba" Gürcüstan Sosial Demokrat Partiyası
**Key words:** Democratic republic of Georgia, local self-government bodies – "eroba",
**Ключевые слова:** Грузинская Демократическая Республика, местные органы самоуправления – «эроба».

26 may 1918-ci il tarixində müstəqilliyini elan etmiş Gürcüstan Demokratik Respublikası (GDR) mövcud olduğu qısa 33 aylıq dövr ərzində milli dövlət quruculuğu prosesinə böyük önəm verərək bu istiqamətdə bir sıra mühüm islahatlara imza atmışdır. Bu islahatlar çərçivəsində demokratik təsisatların yaradılmasına xüsusi diqqət ayrılmış, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və azad səsvermə yolu ilə keçirilmiş ümumxalq seçkiləri nəticəsində ali qanunverici orqan – Müəssislər Məclisi və yerli özünüidarəetmə orqanları – "eroba"lar formalaşdırılmışdır.

Həmin dövrdə Gürcüstanın aparıcı mətbu orqanlarından hesab olunan gürcüdilli "Ertoba" qəzeti yazırdı: "Ümumxalq seçkiləri nəticəsində yaradılmış "eroba" demokratiyanın köklü təməlidir, parlament isə onun tacıdır. Birincidən xaric ikinci havada asılı qalacaqdır, ikinci isə birincisiz inşası tamamlanmamış tikiliyə bənzəyəcəkdir, hansının ki, dam örtüyü yoxdur və küləyin-yağışın əsarətinə buraxılıbdır" [8].

Yerli özünüidarəetmə orqanları – "eroba" seçkilərinin təşkili məsələsi GDR-in ilk parlamenti funksiyasını daşıyan Gürcüstan Milli Şurasında 1918-ci ilin iyun ayında müzakirə olunur və qərara alınır ki, Daxili İşlər Nazirliyi (DİN) tərəfindən bu istiqamətdə təcili surətdə konkret tədbirlərin həyata keçirilməsi üçün hazırlıq işlərinə başlanılsın. Həmin gün respublika hökuməti DİN-ə mövcud siyasi vəziyyətin qənaətbəxş olduğu qəzalarda seçkilərin keçirilməsi üçün müvafiq təşkilati işlərin yenilənməsini həvalə edir. DİN isə öz növbəsində baş seçki instruktoru Tite Marqvelaşvilidən daha öncə keçirilməsi nəzərdə tutulan "eroba" seçkilərinə hazırlıqların hansı mərhələdə yarımçıq qaldığı barədə məsələnin aydınlaşdırılmasını, seçki hazırlıqları üçün lazım olan büdcənin dəqiqləşdirilməsini və s. xahiş edir. Çox keçmədən, 10 iyul 1918-ci ildə T.Marqvelaşvili 1918-ci ilin birinci yarısında kəskin böhran nəticəsində pozulmuş seçki prosesinin yenidən bərpa olunması yönündə mövcud çətinliklərin təhlilindən və qəzalarda seçkilərin təyinolunma tarixi ilə bağlı konkret planlardan ibarət hesabatını DİN-ə təqdim edir [26, s. 153; 1; 19].

Qeyd edək ki, 1918-ci ilin əvvəllərində böyük intuziazmla başladılmış seçki prosesi Osmanlı cəbhəsində yaranmış ağır vəziyyət, eləcə də ölkə daxilindəki anarxiya – bolşeviklərin silahlı çıxışları və kriminal qrupların hərc-mərcliyi nəticəsində pozulmuşdur. Vəziyyət nisbətən sabitləşəndən sonra "eroba" dəftərxanası tərəfindən yenidən, 1918-ci ilin iyun ayından etibarən GDR-in hüququ altındakı 16 qəzada seçki hazırlıqlarına start verildi.

Müvafiq seçki qanunvericiliyinə uyğun olaraq, qəza seçki komitələrinin və qəza təlimatçılarının başlıca vəzifələri seçki siyahılarının hazırlanmasından və dəqiqləşdirilməsindən ibarət idi. Rusiya Müəssislər Məclisinə seçkilər üçün hazırlanmış siyahı artıq yararsız idi. Ona görə də tez bir zamanda seçicilərin siyahıyaalınması gərəkirdi. Qəza seçki komitəsi qəzanı seçicilərin sayına və coğrafi mövqeyinə uyğun olaraq seçki dairələrinə (rayonlara) bölməli idi. Hər dairədə orta hesabla 5000-ə yaxın seçici cəmləşməli idi. Seçki dairələrinin sərhədləri müəyyən olunduqdan sonra dairə seçki komissiyalarının yaradılması nəzərdə tutulurdu. Daha sonra dairələr daxilində seçki məntəqələri





açılmalı idi. "Eroba" seçkilərinə qatılmaq istəyən şəxsin namizədliyi həm partiya siyahıları, həm də şəxsi təşəbbüs qrupu vasitəsilə və ya individual şəkildə irəli sürülə bilərdi. Seçkilər qəzanın bütün seçki dairələrində eyni dövrdə, bir və ya bir neçə gün ərzində keçirilməli idi [26, s. 157].

Beləliklə, DİN və baş "saerobo" təlimatçısının dəftərxanasının müvafiq tədbirlərindən sonra 1918-ci ilin iyun-iyul ayları ərzində GDR-in ərazisinin böyük hissəsində qəza seçki komitələri fəaliyyətlərini bərpa edir, qəzalar üzrə seçkilərin tarixi təyin olunur və seçkilər üç mərhələdə keçirilir.

Seçkiqabağı proseslərdə daha çox diqqəti çəkən özəllik seçki bloklarının yaradılması ilə bağlı idi. Gürcüstan Sosial-Demokrat Partiyasının Quriya (Ozurget qəzası) özəyi solçu - sosialist yönümlü partiyaların bir blokda birləşərək seçkilərdə vahid siyahı ilə iştirak etməsi təşəbbüsünü irəli sürür. Partiyadaxili müzakirələrdən sonra Sosial-Demokrat Fəhlə Partiyasının (GSDFP) Qafqaz üzrə bölgə təşkilatı bu təşəbbüsü dəstəkləyir, bununla belə, Gürcüstan Sosialist-Federalist İnqilabçı Partiyası (GSFİP) və Gürcüstan Sosialist-İnqilabçı Partiyası (GSİP) ilə seçki blokunun yaradılması məsələsində son qərarı partiyanın yerli qəza özəklərinin öhdəliyinə buraxır [26, s. 158; 9].

Sağ yönümlü partiyalar arasında da analoji müzakirələr aparılır. Nəticə etibarilə, seçkilərin ilk mərhələsində solçu partiyalar Ozurget və Şorapan qəzalarında bir blokda birləşə bilirlər. Digər qəzalarda əsasən sosial-demokrat və sosialist-federalistlər vahid siyahı ilə iştirak edirlər. Sağçılara gəldikdə isə onlar yalnız Sığnaq qəzasında vahid blokda birləşməyə nail olurlar. Bu qəzada Gürcüstan Milli-Demokrat Partiyası (GMDP), Torpaq Sahibkarlarının Milli Partiyası və Radikal-Demokrat Kəndli Partiyası ortaq siyahı ilə seçkilərə qatılırlar [26, s. 158].

Seçkilərin birinci mərhələsi 1918-ci ilin avqustundan dekabr ayınadək 12 qəzada (Tiflis, Kutais, Qori, Senak, Ozurget, Telav, Şorapan, Sığnaq, Duşet, Zuqdidi, Raca və Leçxum qəzaları) keçirilir. İkinci mərhələdə seçkilər 1919-cu ilin fevral-mart aylarında Abxaziyada (Qumista, Kodor, Samurzağan və Qudauta qəzaları) və oktyabrda Borçalı, Tianet və Axalsıx qəzalarında təşkil olunur. "Eroba" seçkilərinin sonuncu mərhələsi isə 1920-ci ilin iyul-avqust aylarında keçirilir və Axalkələk qəzasını əhatə edir.

## <u>Tiflis qəzası üzrə seçkilər</u>

Respublikada "eroba" seçkilərinə hazırlıq işlərinə ən erkən Tiflis qəzasında başlanılır. Qəza üzrə seçkilərin təlimatçısı vəzifəsinə Mixail İşxanov təyin edilir və seçicilərin sayının 42 min nəfər olduğu müəyyən edilir.

Qəzada seçkilər ilkin olaraq iyul ayının əvvəlinə təyin edilsə də, texniki çətinliklər ucbatından qəzanın nəzdində yaradılmış 5 seçki dairəsinin (Qareubani, Sərticala, Məngilis, Beloklyuç-Ağbulaq, Qarayazı) hər birində 14 iyuldan başlayıb 15 noyabrda bitməklə müxtəlif tarixlərdə təşkil olunur [7]. Seçkilər ən gec Qarayazı dairəsində, yerli türk-qarapapaq əhali yaylaqdan döndükdən sonra keçirilir [15; 16].

Qarayazıdan "eroba" qlasnılarının seçkiləri üçün 2 namizəd siyahısı irəli sürülür [13]:

1) Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının "Hümmət" Sosial-Demokrat Müsəlman Təşkilatı ilə razılaşdırılmış namizədlərinin siyahısı:

| № | *Namizədin adı, atasının adı, soyadı* | *Yaşı* | *Peşəsi və ya iş yeri* | *Yaşayış yeri* |
|---|---|---|---|---|
| 1 | İvane Anton oğlu Zodelava | 33 | sahibkar | Qarayazı stansiyası |
| 2 | **Allahverdi Məmmədov** | 30 | xalq müəllimi | Suram |
| 3 | **Əli Hüseyn oğlu** | 40 | təsərrüfatçı | Ağtəhlə |
| 4 | **Allahverdi Hacı Osman oğlu** | 50 | təsərrüfatçı | Kosalı |
| 5 | **Abbas Hüseyn oğlu** | 40 | təsərrüfatçı | Qaratəpə |
| 6 | **Qara İsmayıl oğlu** | 35 | təsərrüfatçı | Nazarlı |
| 7 | Qiorqi Tsitskişvili | 25 | xalq müəllimi | Qarayazı |

2) Heç bir partiyanın üzvü olmayan namizədlərin siyahısı:

| № | Namizədin adı, atasının adı, soyadı | Yaşı | Peşəsi və ya iş yeri | Yaşayış yeri |
|---|---|---|---|---|
| 1 | **Pəri xanım Sofiyeva** | 34 | - | Qaracala |
| 2 | **Evstafi İvane oğlu Loladze** | **40** | **vətəndaş** | **Tiflis** |
| 3 | **Məşədi Əli Quliyev** | 48 | təsərrüfatçı | Tiflis |
| 4 | Davit Qriqori oğlu Kaxaberi | 54 | keşiş | Tiflis |
| 5 | **Məşədi Əbdul Məşədi Mustafa oğlu Candar** * | 48 | torpaqölçən | Tiflis |

Ümumilikdə Tiflis qəzası üzrə seçkilərdə 18 316 səs verilir, yəni ki, seçki aktivliyi 43,6 % olur. Ümumi səslərin 75,79 %-ni Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyası və Gürcüstan Sosialist-Federalist İnqilabçı Partiyasından ibarət Sosialist bloku, 24,19 %-ni isə Gürcüstan Milli-Demokrat Partiyası ilə partiyasız namizədlərin bloku toplayırlar. Beləliklə, qəza "erobası"na seçilən 45 qlasnıdan 33-ü - Sosialist blokunu, digərləri GMDP və partiyasız namizədləri təmsil edir [Burada və digər yerlərdə seçki statistikaları üçün bax: 2, vv. 134-161; 3; 4].

Türk namizədlərdən ***Allahverdi Məmmədov, Əli Hüseyn oğlu*** və ***Pərixanım Sofiyeva*** (hamısı Qarayazı dairəsindən) Tiflis qəzasının "eroba" qlasnıları, yəni yerli özünüidarəetmə orqanlarının deputatları seçilirlər. "Saxalxo sakme" qəzeti P.Sofiyevanın seçilməsini xüsusi vurğulayaraq yazırdı: *"Bir sevindirici hal xüsusi qeyd olunmalıdır. Qlasnıların sırasına Qarayazı bölgəsindən irəli sürülmüş müsəlman qadın Pəri-xanım Sofiyeva daxildir"* [21, s. 4].

Tiflis qəzasının "eroba" qlasnılarının ilk toplantısı 2 dekabr 1918-ci ildə keçirilir.

Müstəqil, heç bir partiyada təmsil olunmayan ***Pərixanım Sofiyeva*** sonradan GSDFP-nin sıralarına keçir [26, s. 161].

Qeyd edək ki, **P.Sofiyeva** dünyada demokratik yolla deputat seçilmiş ilk müsəlman qadın olmuşdur. Bu fakt gürcü tədqiqatçısı İrakli Xvadaqianinin [27] və Gürcüstanda yaşayan ingilis əsilli jurnalist Uilyam Danbarın (William Dunbar) da diqqətini çəkmişdir [29].

Yuxarıda təqdim etdiyimiz, "Sakartvelos Respublika" qəzetinin 30 iyul 1918-ci il tarixli sayında çap olunmuş Tiflis qəzası üzrə "eroba" qlasnılarının siyahısından əslən Qarayazının Qaracalar kəndindən olan Pərixanımın 1884-cü ildə doğulduğunu müəyyən etmək mümkündür. Onun mənsub olduğu Sofiyevlər (Sofular) nəsli Borçalı-Qarayazı bölgəsinin məşhur ağa nəsillərindən biri olmuşdur. Sofiyevlər, xüsusilə də Sofu bəy Sofiyevin oğulları Allahverdi və Rəhim 1905-ci ildə erməni silahlı dəstələrinin Tiflis şəhərində dinc türk-müsəlman əhaliyə qarşı törətdikləri qırğınlara qarşı Borçalı-Qarayazıda başlamış xalq hərəkatında fəal iştirak etmişlər [Bu barədə daha ətraflı bax: 30, s. 117-118]. Bu nəslin nümayəndələrindən olan polkovnik **Nuh bəy Sofiyev** Azərbaycan Xalq Cümhuriyyəti ordusunun polkovniki, Qusarda qərar tutmuş 1 saylı "Tatar" (Azərbaycan) süvari alayının komandanı olmuşdur [25, s. 143].

**Pərixanım Sofiyevanın** törəmələri indinin özündə də Tiflisin yaxınlığındakı Qaracalar kəndində yaşayırlar. P.Sofiyevanın qardaşı nəvəsi Əli Əhməd oğlu Sofiyevdən əldə etdiyimiz bilgilərə görə, Pərixanımın Halay ağa, Həmid ağa, Canar ağa, Məcid ağa, Mucud ağa, Almaz ağa, Hacı ağa və Məmməd ağa adlı səkkiz qardaşı, Böyükxanım və Kiçikxanım adlı iki bacısı olmuşdur. Böyükxanım bir urum (türkdilli yunan) ilə ailə qurmuş və Tiflis şəhərində yaşamışdır. Onun vəfatından sonra Tiflisdəki evinə Pərixanım sahiblik etmişdir. Həmin evdə Pərixanımın öz övladı olmadığına görə, qardaşı qızı Pompul xanımı övladlığa götürmüşdür. Pompul xanımın həyat yoldaşı Murad müəllim hazırda Qaracalar kəndində ömrünün ixtiyarlıq çağını yaşayır.

Kənd sakinlərinin dediyinə görə, **P.Sofiyeva** zahiri görünüşcə orta boylu, gözəl sifətə malik sarışın qadın imiş, gürcü və rus dillərində sərbəst danışırmış, qəlyan çəkirmiş, eyni zamanda Quran

* "Sakartvelos Respublika" qəzetinin növbəti 31 iyul 1918-ci il tarixli 6-cı sayında düzəliş edilərək, bu namizədin adının Sosial-Demokrat Fəhlə Partiyasının namizədləri arasında 8-ci sırada çap olunması gərəkliyi bildirilir.





oxumağı da bilirmiş. Tiflisdə yaşadığı dövrdə kəndə tez-tez faytonla gedib-gəlirmiş. Hökmlü, sözü ötgün və əməli kəsərli xanım imiş. Bu xüsusiyyətlərinə görə kənddə onu "kişi Pəri" adlandırırlarmış. Pərixanım həm də xeyriyyəçi imiş, gənc xanımların təhsil almasına xüsusi diqqət yetirərmiş. Tiflisdəki evini yaşamaq üçün təmənnasız bir rus həkim ailəsinə veribmiş.

1921-ci ildə Gürcüstan bolşevik işğalına məruz qalandan sonra "eroba"lar ləğv edilir. Məcburi surətdə kollektivləşmə sisteminə keçid zamanı Sofiyevlər taleyin ağır sınağına tuş gəlirlər. Onların bir çoxunun var-dövləti müsadirə olunur, bir çoxu sürgünə göndərilirlər. Deyilənlərə görə, Pərixanımın üç qardaşı Rusiyanın Kursk vilayətinə sürgün edilir. Ağa nəslindən olduqları üçün kənddə "Ağalığın uşaqları" adı ilə də tanınan Sofiyevlərin bəziləri təqiblərdən yaxa qurtarmaq üçün soyadlarını dəyişməyə məcbur olurlar. Onların bir hissəsi hazırda Məmmədov soyadını daşıyır. Yeri gəlmişkən qeyd edək ki, görkəmli coğrafiyaçı-alim, Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov da bu nəsildəndir [28, s. 16-17].

**Pərixanım Sofiyeva** 1951-ci ildə vəfat etmiş və dünyaya göz açdığı Qaracalar kəndində, Sofiyevlərin nəsil qəbiristanlığında bacılarının yanında dəfn olunmuşdur.

**Borçalı qəzası üzrə seçkilər**

Borçalı qəzasına seçkilər seçki prosesinin ikinci mərhələsində – 8 və 15 iyun 1919-cu il tarixlərində keçirilir. 1919-cu ilin may ayından aktiv fəaliyyətə başlayan qəza seçki komitəsi Yekaterinenfelddə yerləşir [5; 17; 18]. Mətbuat səhifələrində yayımlanmış məlumatda Mərkəzi Seçki Komissiyasının (MSK) Borçalı və Tionet qəzalarında seçkilərin təşkilini bu qəzaların daxil olduğu Tiflis quberniyasının təlimatçılarına həvalə etdiyi bildirilirdi. MSK-nın qərarına görə, quberniya təlimatçısı adı çəkilən qəzalarda seçki komissiyalarını formalaşdırdıqdan sonra bu komissiyalar ondan asılı olmayaraq müstəqil şəkildə fəaliyyət göstərməli idilər. MSK üzvlərindən A.Axmeteli və Q.Veşapeli bu qərarla razılaşmırlar və sözügedən qəzalarda seçkilərin keçirilməsini əlaqələndirəcək xüsusi səlahiyyətli şəxsin təyin olunması zərurətini əsaslandırmağa çalışırlar [18].

Nəticə etibarilə Borçalı qəzası üzrə seçkilərin təlimatçısı vəzifəsini Qiorqi Bartğulaşvili icra edir. Qəza 5 seçki dairəsinə (Borçalı, Yekaterinenfeld, Şulaver, Başkeçid, Tsalka) bölünür.

"Sakartvelo" qəzetinin 1919-cu il 31 may tarixli sayında Borçalı qəzasında seçkilərlə bağlı ilkin hazırlıq işlərinin artıq yekunlaşdığı, seçicilərin siyahılarının yoxlanıldığı qeyd olunur və 31 mayın əlavə siyahıların verilməsi üçün son tarix olduğu bildirilir. Qeyd edək ki, həmin dövrdə Borçalı türklərinin çoxu yaşam tərzlərinə uyğun olaraq qəzanın dağlıq ərazilərində, o cümlədən Ermənistanla neytral zona elan olunmuş Loru nahiyəsinin dağlarında yaylaqda idilər. Əvvəlcə qəza "eroba"sına seçki dairələri üzrə seçici sayına müvafiq Tsalkadan - 10, Şüləverdən - 7, digər dairələrin hər birindən isə 5 qlasnının seçilməsi müəyyən edilmişdisə [22], sonradan kiçik dəyişiklik edilir və Şüləverdən – 5, Yekaterinenfelddən isə 6 qlasnı seçilir.

Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyası və müsəlmanların "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyası seçkilərdə ümumi birləşdirilmiş 1 saylı siyahı ilə iştirak edirlər [6].

Borçalı, Başkeçid, Şüləver və Yekaterinenfeld dairələrində 8 iyunda, Tsalka dairəsində isə 15 iyunda keçirilən "eroba" seçkilərində 42 661 ümumi seçicidən 22 450 nəfər iştirak edir, yəni ki, seçici aktivliyi 52,6 % təşkil edir. Nəticələr aşağıdakı şəkildə əks olunur [11, s. 41-43, s. 84-85; 20; 32, s. 86]:

- Sosial-demokratlar (GSDFP və "Hümmət"in vahid siyahısı) – 8 658 səs (38,5 %);
- Partiyasız müxtəlif qruplar – 6 993 (31,1 %);
- Sosialist-Kolonistlər – 1 405 (6,25 %);
- GSİP – 4 637 (20,65 %).

Dairələr üzrə seçkilərin nəticələrinə nəzər salaq [20; 23; 24]:

Şüləver dairəsində qlasnılığa namizədliyi irəli sürülmüş şəxslərin hamısı Sosial-Demokrat Fəhlə Partiyasının üzvləri idilər. Bu dairədə seçici siyahısına uyğun səsvermə hüququ olan 4795 nəfərdən 1972 nəfər seçkidə iştirak edir. Aşağıdakı şəxslər qəza yerli özünüidarəetməsinə qlasnı seçilirlər:

- Popandopulo Nikol Saba oğlu;
- Çatulov Nikoloz Abram oğlu;
- **Hüseyn Bayramqulu oğlu;**
- Çatinov Misak Simon oğlu;
- Zakalaşvili Petre Teodor oğlu.

Başkeçid dairəsində də namizədlərin hamısı sosial-demokratların təmsilçiləri idilər. Səsverməda seçici siyahısında adı əks olunmuş 6416 nəfərdən (ilkin siyahıda 5625 nəfər olub) 2947 nəfər iştirak edir. Bu dairədən qəza erobasına qlasnı seçilirlər:

- Bartğulaşvili Qiorqi Zakariya oğlu (qəza seçki təlimatçısı);
- Gürcüyev Timote Trifon oğlu (Ergişoğlu kəndi);
- **Pirməmməd Ovçuyev (Qəmərli kəndi);**
- Korinteli Aleksandr Konstantin oğlu (aqronom);
- Selimaşvili Saba Qriqol oğlu (Didi Dmanisi kəndi).

Borçalı dairəsində namizədlərdən ibarət 3 siyahı – GSDFP və "Hümmət"in siyahısı (siyahı № 1), sosialist-kolonistlərin (siyahı № 2) və Kəndlilər qrupunun (siyahı № 3) siyahısı təqdim olunur. Səsvermədə 6709 seçicidən 2642 nəfər iştirak edir. 1806 nəfər - 1 saylı, 713 nəfər - 2 saylı, 123 nəfər isə 3 saylı siyahılara səs verir. Dairə üzrə qəza qlasnısı seçilirlər:

- **Əbdüləziz Şərifov (siyahı № 1 üzrə - jurnalist, Tiflis şəhəri);**
- **Məmməd Hacı oğlu (siyahı № 1 - təsərrüfatçı, Axlımahmudlu kəndi);**
- **Molla Əhməd Hacı oğlu (siyahı № 1 - təsərrüfatçı, Görarxı kəndi);**
- **Hüseyn Vəkilov (siyahı № 1 - təsərrüfatçı, Təkəli kəndi);**
- **Məşədi Bala Aslan oğlu (siyahı № 2 üzrə).**

Yekaterinenfeld dairəsində də 3 namizəd siyahısı (№ 1 – Sosial-demokratlar, № 2 – Sosialist-kolonistlər qrupu, № 3 – Kəndlilər qrupu) irəli sürülmüşdür. Seçkidə 8909 seçicidən 3220 nəfər səs verir. Bu səslər siyahılar üzrə bu şəkildə bölünür: siyahı № 1 – 1933 səs, siyahı № 2 – 692 səs və siyahı № 3 – 595 səs. Bu dairədən qəza "eroba"sının qlasnısı olmaq hüququnu qazanırlar:

- Ramişvili Rafiel Qiorqi oğlu (sosial-demokrat, Tiflis şəhəri);
- Kimerle Ernst Yakov oğlu (sosial-demokrat);
- **Qurban Həsən oğlu (sosial-demokrat, Saraçlı kəndi);**
- **Molla İsa Molla Nəsib oğlu (sosial-demokrat, Bolnis-Kəpənəkçi);**
- Meyyer Fridrix Lüdviq oğlu (sosialist-kolonist);
- Kromer Eduard İvan oğlu (sosialist-kolonist).

Tsalka dairəsindən namizədlərin 4 siyahısı təqdim olunur. Bu siyahılardan beşi (№ 1, № 2, № 4, № 5, № 6) heç bir partiyaya daxil olmayan qrupların, biri isə (№ 3) sosialist-inqilabçıların siyahısı olur. Seçkidə səsvermə hüququ olan 15 832 nəfərdən 11 669 nəfər iştirak edir. Onlardan 4 768 nəfər sosialist-inqilabçılara səs verir. Bu səslərdən 131-i etibarsız sayılır. Digər siyahılar üzrə səslər belə bölünür: № 1 – 759 səs, № 2 – 575 səs, № 4 – 3516 səs (buradan 367 səs etibarsız sayılır), № 5 – 1361 səs (buradan 114 səs etibarsız sayılır), № 6 – 690 səs (onlardan 145 səs etibarsız sayılır). Qəza qlasnısı olmaq hüququnu qazanırlar:

- **Şərifov Ağa Bəy oğlu (siyahı № 1 üzrə – partiyasız);**
- Parmaryants Amayak Ovakim oğlu (siyahı № 2 üzrə – partiyasız);
- Akritas Panayot Qiorqi oğlu (siyahı № 3 – sosialist-inqilabçı);
- Şahbazov Kiriak İvan oğlu (siyahı № 3 – sosialist-inqilabçı);
- Qubasarov Filos Akop oğlu (siyahı № 3 – sosialist-inqilabçı);





- Pilaqov Evstafiy Vasili oğlu (siyahı № 3 – sosialist-inqilabçı);
- Tsandekov Pavel Apostol oğlu (siyahı № 3 – sosialist-inqilabçı);
- Çaqulov Nikolay Feofil oğlu (siyahı № 4 – partiyasız);
- Petrosov Vasiliy Qavril oğlu (siyahı № 4 – partiyasız);
- İoanridi Pyotr Anastas oğlu (siyahı № 4 – partiyasız).

Borçalı dairəsindən soydaşlarımızdan **Molla Əbdülhacı Əfəndi oğlunun (təsərrüfatçı, Kosalı kəndi), Yekaterinenfeld dairəsindən isə Molla Qara Musa oğlu (Arıxlı kəndi)** və **Molla Qurban Hacı oğlunun** GSDFP və "Hümmət"in vahid siyahısı üzrə namizədlikləri irəli sürülsə də [bax: 6, s. 3], onlar seçilmə imkanını əldə edə bilməmişdirlər.

Beləliklə, dairələr üzrə Şulaverdən – 5 "qlasnı" (hamısı GSDFP-dən), Borçalıdan - 5 (GSDFP-4, sosialist-kolonist – 1), Yekaterinenfelddən – 6 (GSDFP – 4, sosialist-kolonistlər - 2), Başkeçiddən – 5 (hamısı GSDFP-dən), seçkilərin ən sonda keçirildiyi Tsalkadan isə 10 (3 müxtəlif partiyasızlar qrupu – cəmi 5, GSİP – 5) "qlasnı" seçilir.

Ümumilikdə qəza "erobası"na seçilmiş 31 "qlasnı"dan GSDFP və "Hümmət"i – 18, partiyasız qrupları – 5, GSİP-ni – 5, sosialist-kolonistləri isə 3 nəfər təmsil edir. Çox keçmədən partiyasız qlasnılardan bir neçəsi sosialist-inqilabçıların sıralarına keçir.

20-22 iyul 1919-cu il tarixlərində Yekaterinenfeld koloniyasında Borçalı qəza erobasının ilk iclası keçirilir. İclasda 24 qlasnı iştirak edir. Onlardan 17-si sosial-demokratlar (7-si – müsəlman, 5-i - gürcü, 2-si – alman və 2-si – yunan), 7-si isə sosialist-inqilabçılar (milliyətcə 4-ü yunan, 3-ü – erməni) olur. Tədbirdə GDR daxili işlər naziri P.Çiçinadze, Müəssislər Məclisinin üzvü E.Sirbiladze, dəftərxananın vitse-direktoru və Daxili İşlər Nazirliyinin katibi iştirak edirlər. İlk öncə qlasnıların təntənəli surətdə aşağıdakı məzmunda andiçmə mərasimi keçirilir:

*"Mən, Borçalı qəzasının erobasının qlasnısı Gürcüstan Demokratik Respublikasının xalqı və hökuməti qarşısında öz müqəddəs vəzifəmi icra etməyə başlayaraq, ədalətlə milliyətindən asılı olmayaraq əhalinin və Respublikanın maraqlarına xidmət edərək bütün işlərimdə zəhmətkeş xalqın və öz vicdanımın səsini dinləməyə təntənəli şəkildə söz verirəm"* [12, s. 85-86].

Toplantıda salamlama nitqi ilə daxili işlər naziri çıxış etdikdən sonra sayları 5 nəfər üzvdən ibarət "zemstvo uprava"sı ("eroba" idarəsi) formalaşdırılır; üzvlərdən ikisi – iqtisadi elmlər namizədi P.M. Kavkasidze və iqtisadi elmlər namizədi R.A. Ramişvili kənardan dəvət olunurlar, üçü isə – **Ə.Q. Şərifov** (Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi), N.S. Papandopulo (milliyətcə yunan, orta təhsilli xalq müəllimi) və E.İ. Kromer (milliyətcə alman, orta təhsilli) "qlasnı"lar arasından seçilirlər. P.M. Kavkasidze "uprava"nın sədri seçilir. İclasda "uprava"nın sədrinə 2500 rubl, üzvlərinə isə 2250 rubl aylıq məvacib təyin olunur, həmçinin, "uprava" nəzdində 12 şöbə – inzibati, məhkəmə, aqronom, aqrar, maliyyə, statistika, mühasibatlıq, tibbi-sanitar, veterinar, xalq maarifi, ərzaq və texniki şöbələr təsis edilir. Əziz Şərifova xalq maarifi, tibbi-sanitar və veterinar şöbələr həvalə olunur [12, s. 85-86]. "Qafqaz şəhəri" jurnalının 1919-cu il 1 noyabr tarixli sayına istinadən təqdim etdiyimiz bu məlumatda Ə.Şərifin 1915-ci ildə qəbul olunduğu Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi olması barədə qeyd diqqəti çəkir. Bu qeyddən aşkar olur ki, Ə.Şərif Gürcüstanda yaşayaraq ictimai-siyasi fəaliyyətlə məşğul olmaqla bərabər ali təhsilini də qiyabi və kəsintisiz şəkildə davam etdirə bilirdi.

Borçalı qəza "eroba"sının ilk toplantısının iştirakçılarının – Borçalı "eroba" şurasının sədri Al.K. Korintelinin, "eroba upravası"nın sədri P.M.Kavkasidzenin və üzvləri **Ə.Q. Şərifovun**, E.İ.Kromerin, N.S. Papandopulonun, R.A. Ramişvilinin, eləcə də toplantıya qatılan "eroba qlasnıları"nın birgə fotoşəkli gürcü dilində nəşr olunan "Teatr və həyat" dərgisinin 1919-cu il 12-ci sayında dərc olunaraq tarixin yaddaşına həkk olunmuşdur [10, s. 12].

"Qafqaz şəhəri"nin Borçalı üzrə bölgə müxbiri İ.Arselovun Yekaterinenfelddən verdiyi məlumatdan **Ə.Şərifovun** Borçalı qəza "erobası"nın "uprava"sının təhsil, səhiyyə, baytarlıq sahələrinə məsul əməkdaşı kimi fəaliyyətinin məhsuldar olduğu aydınlaşır. İnzibati binasının olmaması səbəbindən "uprava"nın faktiki olaraq avqust ayının ikinci yarısında fəaliyyətə başladığı, ancaq buna rəğmən qısa müddət ərzində çox iş gördüyü vurğulanan məlumatda, xüsusən də inzibati aparatın bütövlükdə yeniləndiyi, qəzaya həkimlər, feldşerlər, tibb bacıları və müəllimlərin dəvət edildiyi, bir neçə həkim, veterinar və feldşer məntəqəsinin açıldığı qeyd olunurdu [12, s. 87].

Əlavə edək ki, ömrünün gənclik illəri Tiflis şəhərinə bağlanmış, GDR-in ictimai-siyasi həyatında fəal rol oynamış, elmi və ədəbi ictimaiyyətdə **Əziz Şərif** imzası ilə tanınmış görkəmli ədəbiyyatşünas-alim, tənqidçi və tərcüməçi **Əbdüləziz Qurbanəli oğlu Şərifov (1895-1988)** Gürcüstan parlamentinin (Milli Şurasının) 4 azərbaycanlı üzvündən biri olmuşdur [Bu barədə daha ətraflı bax: 31, s. 6-7].

Yekun olaraq qeyd edək ki, Gürcüstan Demokratik Respublikasında yerli özünüidarəetmə orqanlarına – "eroba"lara seçkilərdə bütün qəzalarda solçular böyük səs üstünlüyü ilə qalib gəlmişdirlər.

**İstifadə olunmuş ədəbiyyat**


1. Gürcüstan Mərkəzi Tarix Arxivi (GMTA), fond № 1863 (Gürcüstan Demokratik Respublikasının Daxili İşlər Nazirliyi qovluğu), siyahı 1, iş № 931.
2. GMTA, fond № 1863, siyahı 1, iş № 469.
3. GMTA, fond № 1863, siyahı 1, iş № 907.
4. GMTA, fond № 1863, siyahı 1, iş № 1068.
5. "Ertoba" („ერთობა") qəzeti, 1919, 5 may, № 100.
6. "Ertoba" („ერთობა") qəz., 1919, 6 iyun, № 123.
7. "Ertoba" („ერთობა") qəz., 1918, 3 iyul, № 136.
8. "Ertoba" („ერთობა") qəz., 1918, 25 iyul, № 158.
9. "Ertoba" („ერთობა") qəz., 1918, 24 avqust, № 179.
10. "Teatri da Tsxovreba" („თეატრი და ცხოვრება") jurnalı, 1919, № 12.
11. "Kavkasiis kalaki (კავკასიის ქალაქი) - Кавказский город" jurnalı, 1919, 15 iyun, № 9-10.
12. Kavkasiis kalaki (კავკასიის ქალაქი) - Кавказский город" jurnalı, 1919, 1 noyabr, № 18-19.
13. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1918, 30 iyul, № 5.
14. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1918, 31 iyul, № 6.
15. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1918, 19 sentyabr, № 45.
16. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1918, 10 noyabr, № 88.
17. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1918, 10 may, № 100.
18. "Sakartvelos Respublika" (საქართველოს რესპუბლიკა") qəz., 1919, 17 yanvar, № 12.
19. "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1919, 29 yanvar, № 22.
20. "Sakartvelos Respublika" (საქართველოს რესპუბლიკა") qəz., 1919, 19 iyun, № 132.
21. "Saxalxo Sakme" („სახალხო საქმე") qəz., 1918, 7 dekabr, № 402.
22. "Sakartvelo" ("საქართველო") qəz., 1919, 31 may, № 117.
23. "Sakartvelo" ("საქართველო") qəz., 1919, 3 iyun, № 123.
24. "Sakartvelo" ("საქართველო") qəz., 1919, 3 iyul, № 137.
25. Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документы и материалы) - Баку, 1998.
26. İ.Xvadaqiani. "Eroba" – Gürcüstan Respublikasında özünüidarəetmə islahatı -1918 (ერობა - თვითმართველობის რეფორმა საქართველოს რესპუბლიკაში - 1918), I cild. Tiflis, 2017.
27. ი.ხვადაგიანი. ყარაიაზის მატრიარქი - ფარი-ხანუმ სოფიევა (İ. Xvadaqiani. Qarayazı matriarxı – Pərixanım Sofiyeva), http://archive.ge/ka/blog/9
28. E.Cəlaloğlu. Xəzərin xanı, yaxud akademik ömrünün spektrləri, Bakı, 2018.
29. William Dunbar. The world's first democratically elected Muslim woman was from Georgia, https://eurasianet.org/s/the-worlds-first-democratically-elected-muslim-woman-was-from-georgia
30. Fəxri Valehoğlu. *Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları,* Bakı (AMEA-nın Tarix İnstitutunun nəşri), 2013, 240 s.
31. Fəxri Valehoğlu-Hacılar. *"GDR-in ilk ali qanunverici orqanı: Gürcüstan Milli Şurası və onun azərbaycanlı üzvləri"*. "Gürcüstan" qəzeti. Tiflis, 11.05.2018, № 35-36 (№ 12697).
32. "Kavkasiis kalaki (კავკასიის ქალაქი) - Кавказский город" jurnalı, 1919, 15 iyul, № 11-12.






## PARTICIPATION OF AZERBAIJANIS IN THE ELECTIONS TO THE LOCAL SELF - GOVERNMENT BODIES OF THE TIFLIS AND BORCHALI UYEZDS IN 1918-1919: THE FIRST DEMOCRATICALLY ELECTED MUSLIM WOMEN DEPUTY IN THE WORLD -PARIHANIM SOFIYEVA


**Summary**

In the Democratic Republic of Georgia, which declared its independence on 26 May 1918, particular attention was paid to the establishment of democratic state institutions. In this context, in 1918-1920, nationwide elections to the local self-governance bodies called "eroba"s were held through free voting in uyezds on different stages.

As a result of the mentioned elections from the local Turkish-Muslim population, Perihanim Sofiyeva, Allahverdi Mammadov and Ali Huseyn oglu, Abdul Aziz Sharifov (Aziz Sharif), Huseyn Bayramgulu oglu, Pirmammad Ovchuyev, Mammad Haji oglu, Molla Ahmed Haji oglu, Huseyn Vakilov, Mashadi Bala Aslan oglu, Gurban Hasan oghlu, Molla Isa Molla Nasib, Agha Bey Sharifov – were elected deputies of Tiflis and Borchali uyezds.

Among the names, P.Sofiyeva was the first Muslim woman elected in the democratic way.


## УЧАСТИЕ АЗЕРБАЙДЖАНЦЕВ В ВЫБОРАХ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В ТИФЛИССКОМ И БОРЧАЛИНСКОМ УЕЗДАХ В 1918-1919 гг. : ПЕРВАЯ МУСУЛЬМАНКА-ДЕПУТАТ В МИРЕ, ИЗБРАННАЯ ДЕМОКРАТИЧЕСКИМ ПУТЁМ – ПАРИХАНУМ СОФИЕВА


**Резюме**

В Грузинской Демократической Республике, которая провозгласила свою независимость 26 мая 1918 года особое внимание было уделено созданию демократических государственных институтов. В этом контексте в 1918-1920 годах поэтапно по уездам были организованы всеобщие свободные и честные выборы в органы местного самоуправления, именуемыми «эроба».

В итоге вышеупомянутых выборов среди представителей местного тюрко-мусульманского населения Париханум Софиева, Аллахверди Мамедов и Али Гусейн оглу были избраны депутатами «эроба» Тифлисского уезда, а Абдул Азиз Шарифов (он же Азиз Шариф), Гусейн Байрамгулу оглу, Пирмамед Овчиев, Мамед Гаджи оглу, Молла Ахмед Хаджи оглу, Гусейн Векилов, Мешади Бала Аслан оглу, Гурбан Хасан оглу, Молла Иса Молла Насиб оглу, Ага Бей оглу Шарифов – депутатами «эроба» Борчалинского уезда.

Из упомянутых имён П. Софиева была первой мусульманкой, избранной депутатом демократическим путем.